**"Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 528 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 mart tarixli 493 nömrəli Fərmanının 2.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

*1-1. Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydanın 4.9-cu bəndinə uyğun olaraq inteqrasiya həyata keçirilənədək Dərman vasitələrinin dövlət reyestrinin məlumatları dəyişikliklər (dövlət qeydiyyatı müddətinin bitməsi, yenidən dövlət qeydiyyatına alınması, istehsalçının dəyişməsi, istehsal ölkəsinin dəyişməsi, yeni qablaşdırma miqdarı) göstərilməklə, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən ayda bir dəfə elektron formada Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının Katibliyinə təqdim edilir.* [1]

*1-2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.*

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri   Artur Rasi-zadə**

Bakı şəhəri, 3 iyun 2015-ci il
№ 209

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2015-ci il 3 iyun tarixli 209 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi**

# Q A Y D A S I

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 4.6-cı maddəsinə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikasında dərman vasitələrinin qiymətlərinin tənzimlənməsini və onlara nəzarətin həyata keçirilməsi qaydalarını müəyyən edir.

1.2. Bu Qayda "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.10-1.0.12-ci maddələrində nəzərdə tutulmuş şəxslərə şamil edilir.

*1.3. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınaraq Dərman vasitələrinin dövlət reyestrinə daxil edilmiş dərman vasitələrinin (yalnız ixrac üçün Azərbaycan Respublikasında istehsal edilmiş dərman vasitələri istisna olmaqla) topdan və pərakəndə satış qiymətlərinin yuxarı həddi Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası (bundan sonra – Şura) tərəfindən tənzimlənir.*[2]

1.4. Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin topdan və ya pərakəndə satışı Şura tərəfindən müəyyən edilən *həddən yuxarı olmayan* qiymətlərlə həyata keçirilir. [3]

## 2. Dərman vasitələrinin bazis qiymətlərinin müəyyən edilməsi

2.1. Dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi bazis qiymətlər əsasında həyata keçirilir. Bazis qiymət dərman vasitəsinin dozası, ticarət qablaşdırması və qablaşdırmadakı miqdarı nəzərə alınmaqla müxtəlif ölkələrdə topdansatış əczaçılıq müəssisələrinə rəsmi satış qiymətlərinin müqayisəsi əsasında müəyyən edilən qiymətdir.

2.2. Dərman vasitələrinin bazis qiymətlərinin hesablanması üsulu Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə"nin 2.1.2-ci yarımbəndinə uyğun olaraq Şura tərəfindən müəyyən edilir.

2.3. Bazis qiymətlərin müəyyən edilməsi məqsədi ilə tənzimləmə təcrübəsi və dərman vasitələrinin qiymətləri üzrə informasiya mənbələrinə çıxış imkanları nəzərə alınmaqla, Şura tərəfindən hər il üçün ən azı 5 (beş) istinad ölkəsi müəyyən edilir. İstinad ölkələrinin siyahısında dəyişiklik 2 (iki) ay əvvəlcədən elan edilməklə həyata keçirilir.

2.4. Növbəti ilin istinad ölkələri cari ilin 31 oktyabr tarixinə qədər Şura tərəfindən elan edilir. Həmin tarixə qədər yeni ölkələr elan olunmadıqda, cari ilin istinad ölkələri sonrakı il üçün də eyni olaraq qalır.

2.5. Dərman *vasitəsinin dövlət qeydiyyatı haqqında vəsiqənin sahibi (bundan sonra – ərizəçi)* tərəfindən təqdim edilmiş məlumatlar, habelə Şuranın Katibliyi (bundan sonra -

Katiblik) tərəfindən istifadə olunan informasiya mənbələri dərman vasitələrinin qiymətləri barədə müfəssəl məlumatların əldə olunmasına imkan vermədikdə, dərman vasitələrinin qiymətlərinin monitorinqi üzrə ixtisaslaşmış təşkilatların xidmətlərindən istifadə olunur. [4]

2.6. Dərman vasitələrinin qiymətlərinin müəyyən edilməsində istifadə olunan informasiya mənbələri Şuranın rəsmi internet saytında yerləşdirilir.

## 3. Dərman vasitələrinin topdan və pərakəndə satış qiymətlərinin *yuxarı həddinin* müəyyən edilməsi[5]

3.1. Dərman vasitəsinin ƏDV-siz topdansatış *qiymətinin yuxarı həddi* ölkədaxili topdansatış əczaçılıq müəssisəsinə şərti satış qiymətinə bu Qaydanın 3.4-cü bəndinin cədvəl hissəsində topdansatış əczaçılıq müəssisəsi üçün nəzərdə tutulan müvafiq əlavələr edilməklə hesablanır. Dərman vasitəsinin ölkədaxili topdansatış əczaçılıq müəssisəsinə şərti satış qiyməti *Şura tərəfindən istinad üçün müəyyən edilən tarixə milli valyutanın ABŞ dollarına olan rəsmi məzənnəsi, Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsbit edilən satış məzənnəsi üçün yuxarı hədd* və nəzarət markasının qiyməti nəzərə alınmaqla bazis qiymət əsasında hesablanan qiymətdir.[6]

3.2. Dərman vasitəsinin ƏDV-siz pərakəndə satış *qiymətinin yuxarı həddi* dərman vasitəsinin ƏDV-siz topdansatış *qiymətinin yuxarı həddinə* bu Qaydanın 3.4-cü bəndinin cədvəl hissəsində aptek təşkilatı üçün nəzərdə tutulan müvafiq əlavələr edilməklə hesablanır. [7]

3.3. Topdansatış əczaçılıq müəssisəsi və aptek təşkilatı üzrə əlavələrin səviyyəsi dərman vasitəsinin ölkədaxili topdansatış əczaçılıq müəssisəsinə şərti satış qiymətinin hissələri (məbləğləri) üzrə faiz nisbətində ayrı-ayrılıqda müəyyən edilir.

3.4. Dərman vasitəsinin topdan və pərakəndə satış qiymətlərinin *yuxarı həddinin* müəyyən edilməsi üçün aşağıdakı cədvəldə göstərilmiş əlavələr tətbiq edilir: [8]

| **Dərman vasitəsinin ölkədaxili topdansatış əczaçılıq müəssisəsinə şərti satış qiyməti** | **Topdansatış əczaçılıq müəssisəsi üçün əlavə** | **Aptek təşkilatı üçün əlavə** |
|---|---|---|
| **1** | **2** | **3** |
| 5 manata qədər olduqda (5 manat daxil olmaqla) | topdansatış əczaçılıq müəssisəsinə şərti satış qiymətinin 20 faizi | topdansatış qiymətinin 20 faizi |
| 5-20 manat arasında olduqda (20 manat daxil olmaqla) | 1 manat + topdansatış əczaçılıq müəssisəsinə şərti satış qiymətinin 5 manatdan çox olan məbləğinin 17 faizi | topdansatış qiymətinin 20 faizi |
| 20-50 manat arasında olduqda (50 manat daxil olmaqla) | 3,55 manat + topdansatış əczaçılıq müəssisəsinə şərti satış qiymətinin 20 manatdan çox olan məbləğinin 13 faizi | topdansatış qiymətinin 20 faizi |

| | | |
|---|---|---|
| 50-100 manat arasında olduqda (100 manat daxil olmaqla) | 7,45 manat + topdansatış əczaçılıq müəssisəsinə şərti satış qiymətinin 50 manatdan çox olan məbləğinin 7 faizi | 11,49 manat + topdansatış qiymətinin 57,45 manatdan çox olan məbləğinin 13 faizi |
| 100 manatdan artıq olduqda | 10,95 manat + topdansatış əczaçılıq müəssisəsinə şərti satış qiymətinin 100 manatdan çox olan məbləğinin 3 faizi | 18,45 manat + topdansatış qiymətinin 110,95 manatdan çox olan məbləğinin 11 faizi |

3.5. Dərman vasitəsinin topdan və pərakəndə satış *qiymətlərinin yuxarı həddi* Şura tərəfindən ƏDV daxil olmaqla təsdiq edilir. *Vergi ödəyicisinin sadələşdirilmiş vergi ödəyicisi və ya ƏDV ödəyicisi olmasından asılı olmayaraq, dərman vasitələrinin topdan və pərakəndə satışı həmin qiymətlərin yuxarı hədlərindən yüksək olmamaqla həyata keçirilir.*[9]

*3.6. Tibb müəssisələri üçün qablaşdırılmış dərman vasitəsinin yalnız topdansatış qiymətinin yuxarı həddi təsdiq edilir.*[10]

**4. Müraciət forması və müraciətlərə baxılması müddətləri**

*4.1. Dərman vasitələri dövlət qeydiyyatına alındıqdan sonra 1 (bir) ay müddətində ərizəçilər tərəfindən qiymət tənzimlənməsi üçün Şuraya müraciət edilir. Dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi üçün sənədlərin qəbulu və araşdırılması Katiblik tərəfindən həyata keçirilir.*[11]

4.2. *Ərizəçilər* orijinal və generik dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi üçün Şura tərəfindən müəyyən edilən bəyannamə forması ilə Katibliyə müraciət edirlər. *Ərizəçilər* təqdim etdikləri məlumat və sənədlərin düzgünlüyünü, habelə qiymətlərin aşağı düşməsi barədə məlumatların bu Qaydanın 5.6-cı bəndinə uyğun olaraq Katibliyə verilməsini təmin etməlidirlər. [12]

4.3. Bəyannamə forması aşağıdakı sənədlərlə birlikdə Katibliyə təqdim edilməlidir:

4.3.1. dərman vasitəsinin *dövlət qeydiyyatı haqqında qeydiyyat vəsiqəsinin* surəti;[13]

~~4.3.2. yerli istehsal olan dərman vasitələri üçün auditor tərəfindən təsdiq edilmiş maliyyə hesabatları;~~[14]

4.3.3. dərman vasitəsinin istehsal, idxal edildiyi və ya farmasevtik forma aldığı ölkələrdə topdansatış əczaçılıq müəssisələrinə ən ucuz satış qiymətlərini göstərən və *Azərbaycan dilinə tərcüməsi notariat qaydasında təsdiq edilən sənədlər;*[15]

4.3.4. GMP (Good Manufacturing Practice) sertifikatı olduğu təqdirdə, sertifikatın notariat qaydasında təsdiq edilmiş surəti;

4.3.5. orijinal dərman vasitəsinə ilk dəfə qiymət müəyyənləşdirildikdə onun orijinal olduğunu sübut edən sənədin ~~notariat qaydasında təsdiq edilmiş~~ surəti. [16]

4.4. Dərman vasitələrinin qiymətlərinin tənzimlənməsindən aşağıdakı hallarda imtina edilə bilər:

4.4.1. bu Qaydanın 4.3-cü bəndində göstərilən sənədlər tam təqdim edilmədikdə;

4.4.2. sənədlərdə təhrif edilmiş və ya qeyri-dəqiq məlumatlar olduqda.

4.5. Sənədlər tam təqdim edilmədikdə, 5 (beş) iş günündən gec olmayaraq, çatışmazlıqlar barədə Katiblik tərəfindən *ərizəçiyə* yazılı məlumat verilir. [17]

4.6. Dərman vasitələrinin qiymətlərinin tənzimlənməsindən əsaslandırılmış imtina barədə *ərizəçiyə* bu Qaydanın 4.7-ci və 4.8-ci bəndlərinə uyğun olaraq yazılı məlumat verilir.

4.7. İlk qiymət tənzimlənməsi üçün müraciət etmiş *ərizəçinin* sənədlərinə 30 (otuz) gün müddətində baxılır. Bu müddət qiymət tənzimlənməsi üçün təqdim edilən sənədlərin tam daxil olduğu gündən hesablanır. [18]

4.8. Dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi ilə bağlı sonrakı müraciətlərə 20 (iyirmi) gün müddətində baxılır.

*4.9. Dərman vasitələri dövlət reyestrinin Şuranın informasiya sistemi ilə inteqrasiyası Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın 4-cü hissəsinə uyğun olaraq həyata keçirilir.* [19]

4.10. Dərman vasitələrinin qiymətinin tənzimlənməsindən imtina üçün əsaslar olmadıqda bu Qaydanın 5.2-ci bəndində müəyyən edilən müddətlərdə, müvafiq qərarın qəbul edilməsi üçün sənədlər Katiblik tərəfindən Şuraya təqdim edilir.

*4.11. Bu Qaydanın 5.8-ci bəndi nəzərə alınmaqla, dərman vasitəsi dövlət qeydiyyatına alındıqdan sonra 1 (bir) ay müddətində ərizəçi tərəfindən qiymət tənzimlənməsi üçün müraciət edilmədiyi halda, Şura tərəfindən istinad ölkələri, habelə açıq informasiya mənbələri olan ölkələr üzrə məlumatlar əsasında araşdırma aparılmaqla, bazis qiymət müəyyən edilərək qiymət tənzimlənməsi həyata keçirilir.* [20]

*4.12. "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 4.11-ci maddəsinin ikinci cümləsində qeyd olunan dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi dərman vasitələrinin istehsalçısı tərəfindən Şuraya müraciət edildikdə həyata keçirilir.*

## 5. Dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərdə dəyişikliklər edilməsi

5.1. Qiymətlər dərman vasitələrinin hər bir dozası və ticarət qablaşdırılması üzrə *istehsal ölkəsi nəzərə alınmaqla* ayrı-ayrılıqda tənzimlənir. [21]

5.2. Dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və ya həmin qiymətlərdə dəyişikliklər edilməsi məsələsinə Şura tərəfindən rübdə *azı* bir dəfə baxılır. Şuranın öz təşəbbüsü ilə və ya bu Qaydada nəzərdə tutulmuş hallarda dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi məsələsinə Şura tərəfindən növbədənkənar qaydada baxılır. [22]

5.3. Dərman vasitələrinin tənzimlənmiş qiymətləri və tətbiqi tarixi barədə məlumat 2 (iki) iş günü müddətində Şuranın rəsmi internet saytında yerləşdirilir.

*5.4. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən dərman vasitələri haqqında verilən məlumatlarda Şura tərəfindən təsdiq edilmiş qiymətlər əks olunur.* [23]

5.5. Milli valyutanın ABŞ dollarına olan rəsmi məzənnəsində 5 (beş) faizdən artıq dəyişmələr olduqda ~~və bu hal 2 (iki) aydan artıq müddətdə davam etdikdə~~, bu Qaydanın 5.2-ci bəndinin tələbinə uyğun olaraq Şuranın təşəbbüsü ilə qiymətlərə növbədənkənar qaydada yenidən baxılır. [24]

5.6. Bazis qiymətin və ya istinad ölkəsinin dəyişilməsi ilə bağlı topdansatış əczaçılıq müəssisəsinə şərti satış qiymətində 5 (beş) faizdən artıq azalma olduqda, qiymətlərdə

müvafiq dəyişiklik edilməsi üçün *ərizəçilər* bu barədə 3 (üç) ay müddətində *Şuraya yenidən müraciət* edirlər. [25]

5.7. Dərman vasitələri üzrə təsdiq edilən qiymətlər Şuranın qərarı ilə müəyyən edilən tarixdən qüvvəyə minir.

*5.8. Aşağıdakı dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinin müəyyənləşdirilməsi bu Qaydanın 5.9 – 5.13-cü bəndlərinə uyğun olaraq həyata keçirilir:* [26]

*5.8.1. əhalinin sağlamlığı baxımından xüsusi əhəmiyyət kəsb edən dərman vasitələri;*

*5.8.2. resept olmadan buraxılan dərman vasitələri.*

*5.9. Bu Qaydanın 5.8.1-ci yarımbəndində qeyd olunan dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinin ilk dəfə müəyyənləşdirilməsi bu Qaydanın 5.11-ci bəndi nəzərə alınmaqla, ərizəçinin müraciətinə və ya bu Qaydanın 4.11-ci bəndinə əsasən həyata keçirilir.* [27]

*5.10. Bu Qaydanın 5.8.1-ci yarımbəndində qeyd olunan dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinə yenidən baxılması bu Qaydanın 5.11-ci bəndi nəzərə alınmaqla, ərizəçinin və ya Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müraciətinə əsasən həyata keçirilir.*

*5.11. Bu Qaydanın 5.8.1-ci yarımbəndində qeyd olunan dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinin ilk dəfə mü əyyənləşdirilməsi və ya həmin qiymətlərə yenidən baxılması ilə əlaqədar Şura tərəfindən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin rəyləri alınır.*

*5.12. Bu Qaydanın 5.8.2-ci yarımbəndində qeyd olunan dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinin ilk dəfə müəyyənləşdirilməsi ərizəçinin müraciətinə və ya bu Qaydanın 4.11-ci bəndinə əsasən dərman vasitəsinin bazis qiymətinə onun 10 faizi və nəzarət markasının qiyməti əlavə olunmaqla həyata keçirilir.*

*5.13. Bu Qaydanın 5.8.2-ci yarımbəndində qeyd olunan dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinə yenidən baxılması bu Qaydanın 5.2-ci bəndinə uyğun olaraq həyata keçirilir.*

*5.14. Ərizəçilərin əsaslandırılmış müraciətinə əsasən tənzimlənmiş qiymətlərdə texniki xətalarla bağlı Şura tərəfindən düzəlişlər edilir. Bu düzəlişlər dərman vasitəsinin qiymətinin yenidən tənzimlənməsi hesab edilmir.*

## 6. Dərman vasitələrinin qiymətlərinə dövlət nəzarətinin həyata keçirilməsi

6.1. Aptek təşkilatlarında satılan dərman vasitələrinin *qablaşdırılmasının üzərində Şura tərəfindən təsdiq edilmiş yuxarı həddən yüksək olmamaqla, pərakəndə satış qiymətləri* göstərilməlidir. [28]

*6.2. Dərman vasitələrinin qablaşdırılmasının üzərində pərakəndə satış qiymətlərinin göstərilməsi aptek təşkilatları tərəfindən təmin edilir. Dərman vasitələrinin qiymətləri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş üsullarla göstərilir.*[29]

6.3. Dərman vasitələrinin satışında qiymət intizamına, o cümlədən dərman vasitələrinin qiymətlərinin bu Qaydanın 6.2-ci bəndinə uyğun olaraq göstərilməsinə nəzarəti Azərbaycan Respublikasının İqtisadiyyat ~~*və Sənaye*~~ Nazirliyi həyata keçirir.

*6.3-1. Dövlət qeydiyyatından keçmiş dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi məqsədi ilə bəyannamələrin, hesabat sənədlərinin və zəruri məlumatların ~~vaxtında və ya~~ düzgün təqdim edilməsinə nəzarəti Katiblik həyata keçirir.*[30]

6.4. Nəzarət tədbirləri "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

## ~~7. Yekun müddəalar~~[31]

~~7.1. Əhalinin sağlamlığı baxımından mühüm əhəmiyyət kəsb edən və ölkədə istehsal edilməyən və ya idxalı səmərəli olmayan, həkim resepti olmadan buraxılan dərman vasitələrinin bazis qiymətlərinin müəyyənləşdirilməsi Şura tərəfindən müəyyən edilən xüsusi şərtlər əsasında həyata keçirilir.~~

~~7.2. İstehsalçıların əsaslandırılmış müraciətinə əsasən tənzimlənmiş qiymətlərdə texniki xətalarla bağlı Şura tərəfindən düzəlişlər edilir. Bu düzəlişlər dərman vasitəsinin qiymətinin yenidən tənzimlənməsi kimi qəbul edilmir.~~

~~***Qeyd.*** *Bu Qaydada dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.*~~[32]

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 13 may 2016-cı il tarixli **195** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 20 may 2016-cı il, № 108, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 5, maddə 955**)
2. 20 dekabr 2016-cı il tarixli **520** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 21 dekabr 2016-cı il, № 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2237)**
3. 27 mart 2017-ci il tarixli **98** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 29 mart 2017-ci il, № 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 3, maddə 496)**
4. 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, “Xalq” qəzeti, 7 mart 2024-cü il, № 52)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, “Xalq” qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə yeni məzmunda 1-1-ci və 1-2-ci hissələr əlavə edilmişdir.

[2] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, “Xalq” qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə “Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası”nın 1.3-cü bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~1.3. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınaraq “Azərbaycan Respublikasının dərman vasitələrinin Reyestri”nə daxil edilmiş dərman vasitələrinin qiymətləri Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası (bundan sonra - Şura) tərəfindən tənzimlənir.~~

[3] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, “Xalq” qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə “Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası”nın 1.4-cü bəndinə “**qiymətlərlə**” sözündən əvvəl “**həddən yuxarı olmayan**” sözləri əlavə edilmişdir.

[4] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, “Xalq” qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə “Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası”nın 2.5-ci bəndində “**vasitələrinin istehsalçıları və ya onların müvəkkil etdiyi şəxslər (bundan sonra – istehsalçılar)**” sözləri **“vasitəsinin dövlət qeydiyyatı haqqında vəsiqənin sahibi (bundan sonra – ərizəçi)”** sözləri ilə əvəz edilmişdir.

[5] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, “Xalq” qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə “Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası”nın 3-cü hissənin adına “**qiymətlərinin**” sözündən sonra “**yuxarı həddinin**” sözləri əlavə edilmişdir.

[6] 20 dekabr 2016-cı il tarixli **520** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 21 dekabr 2016-cı il, № 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2237)** ilə 3.1-ci bəndin ikinci cümləsində "**qiymət bəyannaməsi verilən tarixə ABŞ dollarının Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi internet saytındakı məzənnəsi**" sözləri "**Şura tərəfindən istinad üçün müəyyən edilən tarixə milli valyutanın ABŞ dollarına olan rəsmi məzənnəsi, Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsbit edilən satış məzənnəsi üçün yuxarı hədd**" sözləri ilə əvəz edilmişdir.

5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 3.1-ci bəndin birinci cümləsində "**qiyməti**" sözü "**qiymətinin yuxarı həddi**" sözləri ilə əvəz edilmişdir.

[7] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 3.2-ci bəndində "**qiyməti**" sözü "**qiymətinin yuxarı həddi**" sözləri ilə, "**qiymətinə**" sözü "**qiymətinin yuxarı həddinə**" sözləri ilə əvəz edilmişdir.

[8] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 3.4-cü bəndinə "**qiymətlərinin**" sözündən sonra "**yuxarı həddinin**" sözləri əlavə edilmişdir.

[9] 20 dekabr 2016-cı il tarixli **520** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 21 dekabr 2016-cı il, № 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2237)** ilə 3.5-ci bəndə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 3.5-ci bəndin birinci cümləsində "**qiymətləri**" sözü "**qiymətlərinin yuxarı həddi**" sözləri ilə, ikinci cümləsində "**qiymətlərlə**" sözü "**qiymətlərin yuxarı hədlərindən yüksək olmamaqla**" sözləri ilə əvəz edilmişdir.

[10] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"na yeni məzmunda 3.6-cı bənd əlavə edilmişdir.

[11] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 4.1-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~4.1. Dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi üçün sənədlərin qəbulu və araşdırılması Katiblik tərəfindən həyata keçirilir.~~

[12] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 4.2-ci bəndin birinci və ikinci cümlələrində "**İstehsalçılar**" sözü "**Ərizəçilər**" sözü ilə əvəz edilmişdir.

[13] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 4.3.1-ci yarımbəndində "**Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınması haqqında sənədin (qeydiyyat vəsiqəsinin)**" sözləri "**dövlət qeydiyyatı haqqında qeydiyyat vəsiqəsinin**" sözləri ilə əvəz edilmişdir.

[14] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 4.3.2-ci yarımbəndi ləğv edilmişdir.

[15] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 4.3.3-cü yarımbəndində "**həmin ölkələr üzrə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları tərəfindən Azərbaycan dilinə rəsmi tərcüməsi təsdiq edilən qiymət sənədləri"** sözləri "**Azərbaycan dilinə tərcüməsi notariat qaydasında təsdiq edilən sənədlər**" sözləri ilə əvəz edilmişdir.

[16] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 4.3.5-ci yarımbəndindən "**notariat qaydasında təsdiq edilmiş**" sözləri çıxarılmışdır.

[17] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 4.5-ci və 4.6-cı bəndlərində "**istehsalçıya**" sözü "**ərizəçiyə**" sözü ilə əvəz edilmişdir.

[18] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 4.7-ci bəndin birinci cümləsində "**istehsalçının**" sözü "**ərizəçinin**" sözü ilə əvəz edilmişdir.

[19] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin

qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 4.9-cu bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~4.9. Katiblik tərəfindən sənədlərə baxılarkən dərman vasitəsi haqqında məlumatların, o cümlədən dərman vasitəsinin orijinal və generik olması, həmin dərman vasitələrinin təyinatına və kimyəvi tərkibinə oxşar dərman vasitələri haqqında məlumatların əldə edilməsi ilə bağlı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə sorğu göndərilir. Dərman vasitələri haqqında məlumat Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən 5 (beş) iş günü müddətində Katibliyə təqdim edilir.~~

[20] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 4.11-ci və 4.12-ci bəndləri yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~4.11. Dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi məqsədi ilə Şura tərəfindən elan verilir. İstehsalçılar tərəfindən qiymət tənzimlənməsi üçün Şuranın elanda müəyyən etdiyi müddət ərzində müraciət edilmədiyi təqdirdə, istinad ölkələri, habelə açıq informasiya mənbələri olan ölkələr üzrə məlumatlar əsasında araşdırma aparılmaqla bazis qiymət müəyyən edilərək qiymət tənzimlənməsi həyata keçirilir.~~

~~4.12. Dərman vasitələrinin qeydiyyatı həyata keçirildikdən dərhal sonra istehsalçılar tərəfindən qiymət tənzimlənməsi üçün Şuraya müraciət edilir.~~

[21] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 5.1-ci bəndinə "**üzrə**" sözündən sonra "**istehsal ölkəsi nəzərə alınmaqla**" sözləri əlavə edilmişdir.

[22] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 5.2-ci bəndin birinci cümləsinə "**rübdə**" sözündən sonra "**azı**" sözü əlavə edilmişdir.

[23] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 5.4-cü bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~5.4. Şura tərəfindən təsdiq edilmiş qiymətlər Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təqdim edilən dərman vasitələri haqqında məlumatlarda əks olunur.~~

[24] 20 dekabr 2016-cı il tarixli **520** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 21 dekabr 2016-cı il, № 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2237)** ilə 5.5-ci bənddən "**və bu hal 2 (iki) aydan artıq müddətdə davam etdikdə**" sözləri çıxarılmışdır.

[25] 5 mart 2024-cü il tarixli 118 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 5.6-cı bəndində "**istehsalçılar**" sözü "**ərizəçilər**" sözü ilə, "**Katibliyə yenidən bəyannamə təqdim**" sözləri "**Şuraya yenidən müraciət**" sözləri ilə əvəz edilmişdir.

[26] 20 dekabr 2016-cı il tarixli 520 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 21 dekabr 2016-cı il, № 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2237)** ilə 5.8-ci bəndə "**zamanı**" sözündən sonra "**, habelə dövlət büdcəsindən maliyyələşdirilməyən tibb müəssisələri tərəfindən dərman vasitələri satın alınarkən**" sözləri əlavə edilmişdir.

5 mart 2024-cü il tarixli 118 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 5.8-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~5.8. Dövlət satınalmaları zamanı, *habelə dövlət büdcəsindən maliyyələşdirilməyən tibb müəssisələri tərəfindən dərman vasitələri satın alınarkən* tənzimlənən topdansatış qiymətlərindən aşağı qiymət təklif oluna bilər.~~

[27] 5 mart 2024-cü il tarixli 118 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"na yeni məzmunda 5.9 – 5.14-cü bəndlər əlavə edilmişdir.

[28] 5 mart 2024-cü il tarixli 118 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 6.1-ci bəndində "**üzərində dövlət tərəfindən tənzimlənmiş qiymətlər**" sözləri "**qablaşdırılmasının üzərində Şura tərəfindən təsdiq edilmiş yuxarı həddən yüksək olmamaqla, pərakəndə satış qiymətləri**" sözləri ilə əvəz edilmişdir.

[29] 13 may 2016-cı il tarixli 195 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 20 may 2016-cı il, № 108, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 5, maddə 955**) ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 6.2-ci və 6.3-cü bəndlərindən "**və Sənaye**" sözləri çıxarılmışdır.

5 mart 2024-cü il tarixli 118 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 6.2-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~6.2. Dərman vasitələrinin üzərində pərakəndə satış qiymətlərinin göstərilməsi istehsalçılar tərəfindən təmin edilir. Dərman vasitələrinin ƏDV daxil olmaqla, təsdiq edilmiş pərakəndə satış qiymətləri~~

~~onların qablaşdırmalarının üzərində mətbəə qaydasında çap edilir. Qiymətin qablaşdırmanın üzərində çap edilməsi mümkün olmadıqda, dərman vasitələrinin qiymətləri Azərbaycan Respublikasının İqtisadiyyat *və Sənaye* Nazirliyi tərəfindən müəyyən edilmiş digər üsullarla göstərilir.~~

[30] 27 mart 2017-ci il tarixli **98** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 29 mart 2017-ci il, № 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 3, maddə 496)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"na yeni məzmunda 6.3-1-ci bənd əlavə edilmişdir.

5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 6.3-1-ci bəndinə "**məlumatların**" sözündən əvvəl "**zəruri**" sözü əlavə edilmişdir və həmin bənddən "**vaxtında və ya**" sözləri çıxarılmışdır.

[31] 5 mart 2024-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 6 mart 2024-cü il, "Xalq" qəzeti, 7 mart 2024-cü il, № 52)** ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 7-ci hissəsi və Qeyd hissəsi ləğv edilmişdir.

[32] 20 dekabr 2016-cı il tarixli **520** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 21 dekabr 2016-cı il, № 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2237)** ilə 7.2-ci bənddən sonra yeni məzmunda "**Qeyd**" əlavə edilmişdir.